24 oktyabr / 2020

# Əsgərə məktub

Salam, əsgər!

Necəsən? Döyüşlərdə vəziyyət necədir? Bu məktubu sənə Zübeydənin anası yazır. Atası şəhid olanda Zübeydə 9 aylıq idi. O gündən 28 il keçir. 28 ildir, Zübeydəni böyütməyə çalışıram. Amma....

Son günlərdə böyüdüyünü hiss etməyə başlamışam.

Bu günü mənə bəxş etdirən əsgərim, səndən çox nigaranam, nigaran olduğum qədər də rahatam. Bu rahatlığı ruhuma sənin döyüş ruhun qatıb. Daha gecələr də rahat yatıram. Elə gözəl yuxular da görürəm ki... Bu gün yuxuma Zübeydənin atası gəlmişdi. Elə şad görünürdü ki... Həm də çox tələsirdi. Onu heç vaxt belə görməmişdim. Tələsirdi... Bu gün təyyarəsi ilə Şuşaya uçacaqdı. Uçdu, Vətən göylərinin əbədi sakini. Uçarkən bizi sizə, sizi də Vətənə, Allaha əmanət edib getdi. Allah qorusun sizləri!!!

***Arzu KAZIMQIZI***